**2000-ci ilin dövlət büdcəsinin "Kiçik sahibkarlığa investisiya yardımı" maddəsində nəzərdə tutulan vəsaitin bölüşdürülməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. 2000-ci ilin dövlət büdcəsinin "Kiçik sahibkarlığa investisiya yardımı" maddəsində nəzərdə tutulmuş vəsaitdən investisiya yardımı göstərilməsi barədə Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin təklifi qəbul edilsin və investisiya yardımı göstəriləcək layihələrin Siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu qərarla təsdiq edilmiş vəsaitin investisiya layihələrinin maliyyələşdirilməsi üçün ayrılmasını təmin etsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 13 iyul 2000-ci il**
**№ 118**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3032.**